**Sahib Raiq oğlu Rəhimli**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, doktorant. E-mail:rahimlis175@gmail.com**
**UOT:338.43; JEL: L78; L80.**

# Müasir dövrdə sənaye siyasətinin yeni təməl şərtləri və problemləri

***Xülasə***

*Ölkəmizin rəhbərliyi tərəfindən müəyyən edilən iqtisadi və sosial vəzifələrin uğurla yerinə yetirilməsi iqtisadi artımın əsası olan sənayedən asılıdır. Eyni zamanda ölkəmizin sənaye müəssisələrinin bəzilərinin texniki-texnoloji və elmi-istehsalat potensialı rəqabətqabiliyyətlilik tələblərinə cavab vermir. Buna görə də səmərəli sənaye siyasətinin işlənib hazırlanması və həyata keçirilməsinin elmi, nəzəri, metodoloji və praktiki aspektlərinin öyrənilməsi xüsusi aktuallıq və əhəmiyyət kəsb edir. Məqalənin məqsədi ənaye siyasətinin mahiyyətinin araşdırılması, onun müasir ölkələrin inkişafında rolunu təhlil etməkdir. Məqalədə sənaye siyasəti mürəkkəb sistem kimi nəzərdən keçirilir, sənaye siyasəti ilə bağlı keçmiş təcrübələrin müqayisəsi əsasında onun bugünkü təməl şərtlərinə, ayrı-ayrı alətlərinin əhəmiyyətinə nəzər salınır. Bu əsasda müəllif sənaye siyasətinə yenidən baxılması, iqtisadi inkişaf proseslərinə təkan vermək, innovasiyaları təşviq etmək üçün müdaxilələr edilməsi, bu məqsədlə bazar mexanizmlərindən istifadə edilməsi zərurətini əsaslandırır.*

***Açar sözlər:*** *sənaye siyasəti, rəqabətqabiliyyətlilik, bazar, innovasiya, alətlər, klaster, qloballaşma*

## Giriş

Postpandemiya dövründə sənaye siyasəti yenidən siyasi gündəmə gəlmişdir. Məlum olduğu kimi, koronavirus pandemiyasında sosial tələbatlar kəskin şəkildə dəyişdi və nə bazar, nə də qiymət nəzarətedici amil kimi çıxış etmədi. Həmin dövrdə bazar fundamentalizmi verdiyi vədləri yerinə yetirmədi. Ətir istehsalçısı Dior və Şnapps Jägermeister öz istehsalını dezinfeksiyaedici maddələrə keçirmiş, Zettl avtomobillərinin təchizatçısı və tekstil istehsalçısı Trigema qoruyucu maskalar istehsal etməyə, GM, BMW və Tesla ağciyərlərin süni havalandırılması aparatlarının istehsalını planlaşdırmağa başladılar. İndi də pandemiyanın neqativ nəticələrini aradan qaldırmaq üçün sənaye siyasətini idarəetmə zamanı gəlib çatmışdır. Bu kimi amillər həm də sənaye siyasətinə zərurət yarandıqca yenidən baxılması baxışlarını əsaslandırmışdır.

## Sənaye siyasətinin nəzəri aspektləri

Pandemiyadan əvvəl də sənaye siyasəti ictimaiyyət və mütəxəssislər tərəfindən geniş şəkildə müzakirə olunurdu. Belə ki, hələ 1944-cü ildə liberal iqtisadçı və sosial filosof Fridrix Avqust fon Hayek bütün partiyalardakı sosialistlərə həsr etdiyi "Köləliyə gedən yol" əsərində ehkamçı laissez-faire (müdaxilə etməmə) mövqeyindən uzaq olmağa çağırırdı. O, yazır: "Heç bir dərrakəli insan elə bir iqtisadi sistemi təsəvvür edə bilməz ki, orada dövlət boş dayansın". F.Hayekin fikrincə, dövlətin iqtisadiyyatdakı rolu ondan irəli gəlir ki, nizamlı şəkildə fəaliyyət göstərən rəqabət sistemi davamlı olaraq onun tələblərinə uyğunlaşan müvafiq alətlər sistemini tələb edir. Məlumdur ki, sənaye siyasəti bazar alətləri, xüsusən də bazarların məqsədyönlü layihələşdirilməsi olmadan mümkün deyil. Məsələ sənaye siyasətinin həyata keçirilib-keçirilməməsində deyil, onun necə həyata keçirilməsindədir: bazarın koordinasiyası prinsipi hansı rolu oynaya bilər. Bəlkə sənaye siyasəti təkcə qloballaşma, iqlim böhranı və resurs qıtlığı şəraitində cəmiyyətdə baş verən əsaslı dəyişikliyi müşayiət etmək deyil, həm də daha yaxşı cəmiyyət axtarış prosesini təşkil etmək iddiasındadır. İddianın əhatə dairəsindən asılı olmayaraq, sənaye siyasəti müasir alətlərdən istifadə etmək üçün xeyli səylər tələb edir. Ola bilsin ki, sənaye siyasəti bu səbəbdən mübahisəli bir mövzu olmaqla müzakirələri alovlandırır, çünki hər bir müzakirəçinin sənaye siyasəti haqqında öz təsəvvürləri var.

Bir sıra məqalələri ilə son illərdə sənaye siyasəti ilə bağlı müzakirələrin intibahına səbəb olmuş məşhur iqtisadçı D.Rodrik sənaye siyasətinə aşağıdakı kimi tərif verir: "Mən bu termindən konkret iqtisadi fəaliyyəti həvəsləndirən və struktur dəyişikliyinə səbəb olan siyasətləri ifadə etmək üçün istifadə edəcəyəm. Sənaye siyasəti özlüyündə tək sənaye ilə bağlı deyil. Qeyri-ənənəvi kənd təsərrüfatı və ya xidmətlərə yönəlmiş siyasət də istehsala olan təşviqlər kimi qiymətləndirilir. Ənənəvi kənd təsərrüfatı məhsullarının yüksək məhsuldar sortlarına, ananas və ya avokado kimi yeni məhsullara, zəng mərkəzlərinə və ya turizmə dövlət subsidiyaları buna misaldır [6]. Qeyd edək ki, D.Rodrikin əsərlərində diqqət köhnə sənaye bölgələrində struktur dəyişikliklərinin idarə edilməsi ilə bağlı sənaye siyasəti üzərində deyil, kortəbii, bazara əsaslanan proseslərdən az faydalanan ölkələrdə və ya yerlərdə dinamik iqtisadi inkişaf proseslərini işə salmaq üçün hansı müdaxilələrin lazım olduğu sualı üzərində cəmləşmişdir. D.Rodrik sənaye siyasətini özəl sektorla dövlət arasında əməkdaşlıq üçün münbit şəraitin yaradılmasına yönələn hərəkətlər kompleksi kimi nəzərdən keçirir. O, ayrıca olaraq qeyd edir ki, dövlətin təşviqləri fəaliyyətin nəticələrindən asılı olmalı və müvəqqəti xarakter daşımalıdır [7]. Buna görə də sənaye siyasətinin konkret nəyi nəzərdə tutduğuna dair razılığa gəlmək asan deyil.

**Sənaye siyasətinin xüsusiyyətləri**

İnternet sayəsində indi müxtəlif təriflərin hər hansı bir siyahısını tərtib etmək sadəcə bir neçə dəqiqənin işidir. Bu təriflərin müxtəlifliyi isə ondan xəbər verir ki, sənaye siyasəti geniş sahədir. Biz "sənaye siyasəti" dedikdə, dövlət (yerli) və ya millətlərlərüstü təşkilatların sənayenin saxlanmasına, formalaşdırılmasına, uyğunlaşdırılmasına və təşviqinə yönəlmiş bütün regional və struktur siyasət tədbirlərini başa düşürük. Sənaye siyasəti mürəkkəb sistemlərə aiddir. Sistemlilik onda öz ifadəsini tapır ki, sinergiya xüsusiyyətinə malik olan hər hansı bir sistem alt sistem adlanan müəyyən elementlər toplusunu özündə ehtiva edir və eyni zamanda özü də daha böyük sistemin tərkib hissəsidir. Bu baxımdan makro səviyyədə sənaye siyasəti struktur siyasətinin bir hissəsidir. Bəzən də "sənaye siyasəti" və "struktur siyasəti" anlayışları bu gün praktiki olaraq sinonim kimi işlədilir. Mürəkkəb sistemlərindərki üçün akademik elm bir neçə kateqoriya dövriyyəyə daxil etmişdir. Onlardan birinə görə, çox vaxt sistemlər xətti şəkildə fəaliyyət göstərmir, buna görə də səbəb-nəticə zəncirlərinə endirilə bilməz. Qeyri-xətti sistemləri idarə etmək cəhdləri planlaşdırılmamış, gözlənilməz nəticələrə gətirib çıxarır [1]. Bundan başqa, sənaye siyasətinin sistemliliyi həm də onda öz ifadəsini tapır ki, siyasətin bir sıra sahələrinin sənaye siyasəti üçün nəticələri olur, bəzən də siyasətin niyyətlərini elə sənaye siyasəti təşkil etmiş olur. Məsələn, enerji siyasətində bərpa olunan enerji mənbələrinin təşviqi xüsusi sənaye siyasətinin gündəliyinin bir hissəsidir. Sınaqları və çətinlikləri iqtisadi struktura təsir edən səhiyyə sahəsində siyasət əczaçılıq sənayesi və ya tibbi cihazlar istehsalı kimi sektorlarda iqtisadiyyatın strukturuna təsir göstərir. Bütün bunların fonunda "sənaye siyasəti" termininin tək halda işlədilməsi mənasızdır. Böyük, yüksək differensiallaşmış və mürəkkəb sənayeləşmiş ölkədə onlarla, hətta yüzlərlə dövlət və qeyri-dövlət aktorları tərəfindən razılaşdırılmış vahid, ardıcıl sənaye siyasətinin ola biləcəyini güman etmək çətindir. Sənaye siyasətinin diapazonu genişdir - milli/millətlərüstü, eləcə də ərazi səviyyəsində sənaye siyasəti həmişə olacaq.

Sənaye siyasəti ilə struktur siyasəti bir çox mənada tədqiqat və texnologiyalar sahəsində siyasət və ya "innovasiya siyasəti" ilə kəsişir. Tədqiqat və texnologiyalar sahəsində siyasət çərçivəsində sənaye siyasətinin məqsədlərinin güdülmədiyi sahələr var. Bununla belə, tədqiqat və texnologiyalar sahəsində siyasət əsasən aşağıdakı niyyətlərlə həyata keçirilir: zəruri insan problemlərinin gələcəkdə kommersiya təchizatçıları tərəfindən təqdim olunan məhsul və ya xidmətlərə gətirib çıxaran innovativ həllərini tapmaq (radikal innovasiyalar); şirkətlərin daimi innovasiyalar (əlavə innovasiyalar) hesabına rəqabət qabiliyyətliliyini gücləndirmək məqsədi ilə

rəqabət üstünlüyü əldə etmək səylərinə dəstək olmaq. Sənaye siyasəti ilə bağlı keçmiş təcrübələr sənaye siyasətinin bu gün necə formalaşdırıla və həyata keçirilə biləcəyinə dair yalnız məhdud təsəvvürlər verə bilər, çünki təməl şərtlər xeyli dəyişmişdir. Bu dəyişmiş təməl şərtləri aşağıdakılarda özünü büruzə verir. Belə ki, ənənəvi olaraq sənaye siyasətinin diqqəti ümumi mənada sənayeyə, yəni istehsal sənayesinə yönəlmişdir. Sənaye siyasətinə analoji olan "xidmətlər siyasəti"nin olmaması onu göstərir ki, sənaye siyasətinin əhatə dairəsi zaman keçdikcə genişlənərək indi xidmət sektorunu da əhatə edir.

Ənənəvi sənaye siyasəti seçici idi, yəni o, ayrı-ayrı sektorları və ya hətta şirkətləri inkişaf etdirmək və ya gücləndirmək məqsədini daşıyırdı. Sənaye siyasətinin bu forması tənzimləmə nöqteyi-nəzərindən ("uğurlu şirkətlər/sektorlar vəzifəli şəxslər tərəfindən deyil, bazar prosesində seçilməlidir" fikri) ciddi şəkildə tənqid edilmişdir. Sənaye siyasətinin tənqidçiləri qeyd edirlər ki, düşünülməmiş sənaye siyasətinin neqativ nəticələri liberal bazar münasibətlərinin nəticələrindən daha ağırdır. Bundan başqa, iqtisadi ittifaqlara qoşulma sənaye siyasəti alətlərinin tətbiq sahəsini məhdudlaşdırmağı tələb edir. Deyilənlərə cavab olaraq, diqqət sənaye siyasətindən bütün müəssisələr üçün şəraitin yaxşılaşdırılmasına yönəlmiş ümumi siyasətə yönəldi. Keçmişdə sənaye siyasəti bəzən köhnə sənaye sektorlarının azalması prosesini yavaşlatmağa çalışırdı. 1990-cı illərdən bəri sənaye siyasəti getdikcə daha çox yeni sahələrin gücləndirilməsinə və onların qlobal innovasiya yarışında rəqabət aparmasına imkan yaradılmasına yönəlmişdir. Sənaye siyasəti bəzən, xüsusən də iri və ya regional, strateji baxımdan xüsusi əhəmiyyətli şirkətlərin iflas təhlükəsi ilə üzləşdiyi hallarda ad hoc xarakter daşıyırdı. Avropada bu təcrübə indi Aİ-nin dövlət yardımı haqqında qanununa ziddir. Buna görə də diqqət iqtisadiyyatın uzunmüddətli perspektivdə rifahı təmin edə biləcək sektorlarını gücləndirmək məqsədini güdən strateji sənaye siyasətinə yönəldilib. Keçmişdə sənaye siyasətinin uğurları əsasən aydın şəkildə müəyyən edilmiş "qovub çatan" prosesini (elektronika sənayesində Yaponiyada MITI-nin sənaye siyasəti, avtomobilqayırma və mikroelektronika sahəsində Koreya sənaye siyasəti) həyata keçirmək cəhdi ilə bağlı olmuşdur. Bu ölkələrin öz sənaye siyasətini bütün dünyada yeni sahələrin qurulmasına yönəltmək cəhdləri elə də uğurlu olmamışdır. "Qovub çatan" sənaye siyasəti heç də həmişə özəl şirkətlərə yönəlməmişdir. Sərbəst bazar əsasında təşkil edilən ölkələrdə sənaye siyasəti kontekstində çox vaxt dövlət sənaye şirkətləri yaradılır və ya strateji əhəmiyyətli hesab edilən şirkətlər milliləşdirilirdi.

Ənənəvi sənaye siyasəti ilk növbədə mərkəzi hökumətin siyasəti olmuşdur. Lakin zaman keçdikcə sənaye siyasətinin deməkəzləşməsi güclənirdi ki, bu da, məsələn, regional struktur siyasətində "endogen potensialın səfərbər edilməsi"nə təkan verirdi. Əvvəlki dövrlərdən fərqlənən sənaye siyasəti üçün iqtisadi qloballaşma da şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, qloballaşmanın milli və transmilli siyasətə təsirləri ilə bağlı müzakirələr heç də həmişə real vəziyyətin mürəkkəbliyini, ziddiyyətlərini əks etdirmir. Qloballaşmanın paradokslarından biri ixtisaslaşmanın dərinləşməsi səbəbindən lokal coğrafi üstünlüklərin əhəmiyyətinin artması ilə bağlıdır. Beynəlxalq şirkətlərin məhsuldarlığı daim differensiasiya olunan ilkin məhsul və xidmətlərin mövcudluğundan asılıdır. Yüksək ixtisaslaşmış ilkin məhsulların istehsalı və dar ixtisaslaşmış xidmətlərin göstərilməsinin iqtisadi səmərəliliyi, xüsusən də ölkə daxilində yalnız qismən satıla bilən xidmətlər üçün təchizatçıların və müştərilərin müəyyən dərəcədə məkan təmərküzləşməsini tələb edən minimal ölçülər lazımdır. Eyni zamanda, müəyyən bir sahədə differensiasiya etmiş və yüksək ixtisaslı təchizatçılar təklif edə bilən yerlər müvafiq sahədən olan şirkətləri cəlb edir ki, bu da onların əməliyyat xərclərini azalda və rəqabət qabiliyyətini artıra bilər. Bu fakt iqtisadi klasterlərin əhəmiyyətini, eyni zamanda çiçəklənən və marjinallaşmış regionlar arasında qütbləşməni izah edir. Hər iki fenomen - klaster üstünlükləri və bir çox regionların marjinallaşması - struktur siyasətinin mərkəzi motivləridir. Beləliklə, sənaye siyasətinin xeyrinə

təzyiqlər ərazi səviyyəsində zəifləmir, buna görə də qloballaşma şəraitində sənaye siyasətinə yenidən baxılmalıdır.

Qloballaşma təkcə iqtisadi sahə ilə məhdudlaşmır, siyasi cəhətdən o, siyasi qarşılıqlı asılılığın artmasında öz ifadəsini tapır. Siyasi inteqrasiya sənaye siyasəti üçün mühüm rol oynayır. Nazirliklər arasında üfüqi siyasi qarşılıqlı asılılıq artır: iqtisadiyyat nazirliyindən başqa, əmək, təhsil, ekologiya, müdafiə, kənd təsərrüfatı və səhiyyə nazirlikləri də sənaye siyasətində iştirak edir. Şaquli siyasi əlaqələr, təcrübə və təşəbbüsün artımı təkcə beynəlxalq səviyyədə deyil, həm də yerli və regional səviyyədə də müşahidə edilir. Milli gəlirdə istehsalın payı aşağı düşür. Bu, əvvəllər sənaye şirkətləri tərəfindən daxili olaraq təqdim edilən bir çox xidmətlərin indi ixtisaslaşmış şirkətlər tərəfindən təklif edilməsi ilə əlaqədardır. Bir çox digər xidmətlər sahənin mütərəqqi diferensiallaşmasına cavabdır. Bunun fonunda sənaye siyasətini yalnız istehsal sektoruna yönəltmək mənasızdır. Ayrı-ayrı alətlərin nisbi əhəmiyyəti də dəyişmişdir. Əvvəllər sənaye siyasəti əsasən böyük şirkətlərə fayda verirdi. Qərbdə bütöv bir istehsal sektorlarının dağıldığı 1980-cı illərdən sonra belə bir ortaq fikir formalaşmışdır ki, dövlət özəl sənayenin dəstəyində müəyyən rol oynamalıdır. Bu gün sənaye siyasəti daha çox startaplara, ilkin artım mərhələsində olan şirkətlərə və ümumilikdə kiçik və orta müəssisələrə yönəlmişdir. Dinamik iqtisadi inkişaf proseslərinə təkan vermək üçün nə kimi müdaxilələr edilməlidir. Bu suala cavab vermək üçün iki praktiki misalı nəzərdən keçirək. Yaranmaqda olan yerli klasterdən başlayaq. Şirkət müəyyən bir yerdə tarixi təsadüf nəticəsində yaranır, məsələn, geyim istehsalı üçün və təsisçi səriştəli, bazarda vəziyyət isə əlverişli olduğundan, şirkət sürətlə inkişaf edir. Fərdi işçilər eyni sənayedə öz şirkətlərini qururlar. Sahibkarlıq dünyagörüşü olan digər insanlar geyim istehsalçılarını maraqlı müştərilər kimi görür və onlara parçalar, iplər, düymələr, etiketlər satırlar. Ayrı-ayrı satıcılar etiket, düymə istehsalına özləri başlayırlar. Yeni filialda ilk istehsalçı ixtisaslı işçi tapmaqda çox çətinlik çəkir, lakin zaman keçdikcə geyim istehsalının bütün aspektləri üzrə yerli ixtisaslı mühəndis, texniki və ixtisaslı işçiləri işə götürmək asanlaşır. Bu insanların yetişdiriləcəyi peşə məktəbi açılır, ilkin məhsulların sınaqdan keçirildiyi laboratoriya yaradılır, ola bilsin ki, laboratoriyadakı texniklər materiallarla təcrübə aparmağa başlayırar. Tədqiqatlar belə başlayır. Ola bilsin ki, sahibkarlar da öz ümumi maraqlarını təmsil etmək üçün birlik yaradacaqlar. Və bəlkə də bu assosiasiya həmçinin xidmətlər, məsələn, təlim tədbirləri və ya bazar təhlili kimi xidmətlər təşkil edəcək. Yəni, bazarın "görünməyən əli" sayəsində zamanla planlaşdırılmamış bir klaster formalaşır. Bəs ilk şirkət qurucusu geyim biznesi deyil, ixtisaslaşmış İT məhsulları və ya xidmətləri üçün şirkət qursaydı, bu ssenari necə baş verərdi. Bəzi ehtimallarla fərqli bir mənzərə ortaya çıxacaqdı. Məsələn, ABŞ iqtisadçısı və sosioloqu R.Florida müntəzəm olaraq 1990-cı illərdə Pitsburqdakı Karnegi Mellon Universitetinin törəmə şirkəti kimi qurulan və sonralar köhnə poladtökmə şəhəri olan Pittsburqa yüksək ixtisaslı, ixtisaslaşmış işçi qüvvəsini cəlb etmək mümkün olmadığı üçün Bostona köçən Lycos internet portalından bəhs edir [4]. Bu təcrübə şirkət təsisçisinin yeni, bilik tutumlu sənayedə üzləşdiyi çətinliklər barədə ilk təsəvvürlər yaradır. Geyim şirkətinin bir neçə menecerə və çoxlu işçiyə ehtiyacı var və bu işçilərin əksəriyyəti qısa müddət ərzində təlim keçə bilər, İT şirkətinə isə ilk növbədə təkcə yerli deyil, bəlkə də qlobal miqyasda çatışmayan yüksək ixtisaslı, ixtisaslaşmış işçi qüvvəsi lazımdır. Bundan əlavə, geyim sahibkarı əsasən gündəlik xidmətlərə ehtiyac duyur, İT şirkəti isə bir sıra ixtisaslaşmış xidmət təchizatçılarının mövcudluğundan asılıdır. Bu və buna bənzər səbəblərə görə müəyyən bir yerdə, regionda və ya ölkədə yeni sənayelər yaranmır. Bazar uğursuzluğunun bu və buna bənzər formalarını aradan qaldırmaq üçün sənaye siyasəti ilə motivasiya olunan müdaxilələr lazımdır.

Sənaye siyasəti bazar mexanizmlərindən innovasiyaları təşviq etmək üçün istifadə edə bilər. ISDN ilə İnternet arasındakı fərqlə ağlı maraqlı bir misal gətirək. ISDN 1980-ci illərdə 64 kbit/s

məlumat ötürmə sürətinə malik texniki cəhətdən mürəkkəb və statik sistem kimi böyük məsrəflər hesabına işlənib hazırlanmışdır (o vaxt bu, sürətli görünürdü). İnternet isə "mümkün qədər sadə" prinsipinə əsaslanan və üzərində digər xidmətlərin quraşdırıla bildiyi platforma texnologiyası kimi işlənib hazırlanmışdır. İnternet son 15 il ərzində bir çox müəssisənin yarandığı, onların da bir çoxunun sürətlə böyük korporasiyalara (məsələn, Yahoo, Google) çevrildiyi çiçəklənən bazar yaratmaq effektinə (tamamilə planlaşdırılmamış) malik olmuşdur. Təsadüfi deyil ki, bu şirkətlərin böyük əksəriyyəti internetin vətənində - ABŞ-da yaranıb, çünki burada işlək bazar üçün şərait yaradılmışdır. Bu, onu göstərir ki, sənaye siyasəti sahibkarların innovasiyalara can atdığı işlək bazarlar üçün şərait yaratmağa çalışmalıdır. Sənaye siyasəti innovasiya qabiliyyətini gücləndirməyi hədəflədikcə, bazarlardan alət kimi istifadə daha böyük əhəmiyyət kəsb edəcək. İnnovasiyalar iqtisadiyyatı uzun müddətdir ki, rəqabətin firmaların innovasiyalarla məşğul olmasının əsas səbəbi olduğunu vurğulayır. Əslində innovasiyalarla məşğul olmaq şirkətin təbiətinə mütləq xas deyil. Əksinə: şirkət üçün innovasiyalarla məşğul olmamaq tamamilə rasionaldır. Hər bir kiçik yenilik ilkin olaraq məhsuldarlığın və keyfiyyətin aşağı düşməsinə səbəb olan bir sıçrayışdır. İstənilən böyük innovasiya yüksək risklə bağlıdır - yeni məhsulun işlənib hazırlanmasının dəyəri bəllidir, gəlir isə - yox. Sənaye siyasətinin problemlərindən biri odur ki, alətlər tətbiq edilir, lakin onların icrasının heç bir sistemli monitorinqi aparılmır. Nəticədə, tədricən yaxşılaşma prosesləri qeyri-sabit ola bilir. Bəzən alət prinsipcə düzgün yanaşma əsasında işlənmiş olur, lakin həyata keçirilə bilmir. Buna misal olaraq bəziləri mükəmməl şəkildə fəaliyyət göstərmiş, digərləri isə uğursuz olmuş biznes inqubatorlarını göstərmək olar. Buna görə də sənaye siyasəti kontekstində təlim və təhsilə daha çox diqqət yetirilməlidir.

**Nəticə**

Aparılan təhlildən belə nəticələr əldə etmək mümkündür. Birincisi, ölkələrdə aktiv sənaye siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi obyektiv zərurət, pandemiyanın neqativ nəticələrinin aradan qaldırılması və ölkələrin və onların regionlarının iqtisadiyyatının davamlı inkişafını təmin edilməsi vasitəsidir. Ölkəmizdə də həm milli, həm də sənaye istehsalının iqtisadi artımın təməlinin olduğu regional səviyyədə sənaye inkişaf konsepsiyasının əsas aləti olan sənaye siyasətinin rolu danışılmazdır. Sənaye siyasəti qloballaşmanı nəinki istinad nöqtəsi hesab etməli, hətta onun üzərində fəal işləməlidir. İkincisi, sənaye siyasəti dövlətin özünün mahiyyətindən irəli gələrək bu təsisatın zəruri funksiyası, onun hüquq və vəzifəsidir. Sənaye siyasəti dövlətin aparıcı rol oynadığı bir hadisədir. Dövlət sənaye siyasətinin təşəbbüskarıdır və onun formalaşdırılmasında və həyata keçirilməsində mərkəzi rol oynayır. Üçüncüsü, sənaye siyasəti alətlər dəsti daha da differensiallaşaraq bu gün icraçı təşkilatlardan çox yüksək səviyyədə səriştəlilik tələb edən bir sıra mürəkkəb alətləri ehtiva edir. Dördüncüsü, seçkili şəkildə ayrı-ayrı sektorlara yönəlmiş alətlərə əlavə olaraq, bütün şirkətlər üçün çərçivə şərtlərini yaxşılaşdırmaq məqsədini güdən ümumi alətlərdən də istifadə edilməlidir. Beşincisi, bazar iqtisadiyyatının təməl daşlarını təşkil edən rəqabət və işlək qiymət sistemi dövlətin müdaxiləsi nəticəsində aradan qaldırılmamalıdır. Sənaye siyasətinin vəzifəsi ilk növbədə sənayenin rəqabət qabiliyyətini qoruyan və məşğulluğu və innovasiya potensialını artıran təməl şərtlərini müəyyən etməlidir.

**Ədəbiyyat**

1. Dörner, Dietrich (1989): Die Logik des Misslingens. Strategisches Denken in komplexen Situationen, Reinbek.
2. Eder, Julia (2020): Von global zu (mehr)regional? Die Wirtschaft nach Corona umgestalten!, Policy Brief 5/2020, Marie Jahoda – Otto Bauer Institut.
3. Fisahn, Andreas (2019): Paradigmenwechsel durch eine neue Industriepolitik?, Rosa-Luxemburg-Stiftung.

4.Florida, Richard (2002): The Rise of the Creative Class, New York.
5.Mazzucato, Mariana (2014): Das Kapital des Staates. Eine andere Geschichte von Innovation und Wachstum, Kunstmann.
6.Rodrik, Dani (2007): Normalizing Industrial Policy, Cambridge, Mass.
7.Rodrik, Dani (2004): Industrial policy for the Twenty-First Century. John F. Kennedy School of Government, Faculty Research Working Papers Series, Cambridge, Mass.
8.Urban, Hans-Jürgen (2019): Gute Arbeit in der Transformation. Über eingreifende Politik im digitalisierten Kapitalismus, VSA-Verlag.
9.Wambach, Achim (2019): Wettbewerbspolitik für die neuen Herausforderungen, in: ifo Schnelldienst 8/2019,

***Сахиб Раиг оглы Рагимли***

***Новые базовые условия и проблемы промышленной политики в современный период***

***Резюме***

*Успешное выполнение экономических и социальных задач, поставленных руководством нашей страны, зависит от отрасли, которая является основой экономического роста. В то же время технико-технологический и научно-производственный потенциал некоторых промышленных предприятий нашей страны не отвечает требованиям конкурентоспособности. Поэтому изучение научных, теоретических, методологических и практических аспектов разработки и реализации эффективной промышленной политики приобретает особую актуальность и значение. Цель статьи-изучить сущность политики материнства, проанализировать ее роль в развитии современных стран. В статье рассматривается промышленная политика как сложная система, рассматриваются ее сегодняшние базовые условия, значение отдельных инструментов на основе сопоставления прошлого опыта промышленной политики. На этой основе автор обосновывает необходимость пересмотра промышленной политики, проведения вмешательств для стимулирования процессов экономического развития, стимулирования инноваций, использования с этой целью рыночных механизмов.*

***Ключевые слова:*** *промышленная политика, конкурентоспособность, рынок, инновации, инструменты, кластеризация, глобализация*

***Sahib Raiq Rahimli***

***New fundamental conditions and problems of industrial policy in modern times***

***Summary***

*The successful fulfillment of economic and social tasks determined by the leadership of our country depends on the industry that is the basis of economic growth. At the same time, the technical-technological and scientific-production potential of some of the industrial enterprises of our country does not meet the requirements of competitiveness. Therefore, the study of the scientific, theoretical, methodological and practical aspects of the development and implementation of an effective industrial policy is of particular relevance and importance. The purpose of the article is to investigate the essence of indutry policy, to analyze its role in the development of modern countries. In the article, industrial policy is considered as a complex system, on the basis of a comparison of past experiences related to industrial policy, it is considered to its basic conditions today, the importance of its individual tools. On this basis, the author substantiates the need for a revision of industrial policy, the introduction of interventions to stimulate economic development processes, promote innovation, the use of market mechanisms for this purpose.*

***Keywords:*** *industrial policy, competitiveness, market, innovation, tools, cluster, globalization*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 17.08.2022.***
***Çapa qəbul olunub: 24.08.2022.***